**Keçən ayın son günündə Quba rayon MKS-nin qiraət zalında bir qələbəlik var idi. "Gülüstan" elmi-ədəbi məclisinin üzvləri böyük mütəfəkkir A.A.Bakıxanovun anadan olmasının 225 illiyinə həsr edilmiş növbəti məşğələsinə toplaşmışdılar. Tədbirdə məclisin sədri Şixəmməd Seyidməmmədov,MKS-nin direktoru Samədin Nəsirov, "Yurd sevgisi" qəzetinin baş redaktoru Nurəddin Faxralı, Dağıstan Respublikası Yazarlar İttifaqının prezidenti Tahir saleh, "Şabran" ədəbi məclisinin sədri Qafar Süleyman, həmçinin Sumqayıt,Bakı,Xaçmaz və Şabrandan olan şair və yazıçılar iştirak ediblər. Onlar ilk əvvəl "A.A.Bakıxanov - 225" stendi ilə tanış olublar.**

Tədbiri məclisin sədri Ş.Seyidməmmədov açıq elan etdi və bildirdi ki, həyatının böyük bir hissəsini Qubada, onun gözəl guşələrindən biri olan qədim Amsar kəndində keçirmiş, xalqımızın böyük alimi, filosofu, şairi,mütəfəkkiri, bir sözlə hərtərəfli şəxsiyyəti olan A.A.Bakıxanovun anadan olmasının 225 illik yubileyinə həsr olunmuş məclisin növbəti məşğələsinə toplaşmışıq. A.A.Bakıxanov "Gülüstani-İrəm","Qanuni-Qüdsi", "Eynəl-mizan", "Kitabi Əskəriyyə", "Miratül-cəmal", "Riyazül - Qüds","Əsrarül-mələkut", "Kəşful-Qəraib","Ümumi coğrafiya" və sair əsərlərin müəllifidir. Bəli, xalqın maarifləndirilməsində,ədəbiyyatımızın zənginləşməsində böyük xidmətləri olan belə bir şəxsiyyət ilə fəxr edərək onu yad etməmək olmaz.

MKS-nin direktoru S.Nəsirov çıxış edərək XIX əsrin görkəmli maarifçisi,siyasi xadimi olan A.A.Bakıxanov doğulduğu Əmirhacıyan kəndini həmişə Amsar kəndi ilə bərabər tuturdu. Qubada və Amsarda yaşadığı 21 il ərzində o, ən məşhur əsərlərini, fəlsəfi fikirlərini Ağçayın ritmləri altında yaratmışdır.

Yubiley tədbirində yazarlardan Tahir Saleh, Qafar Süleyman, Pirəli Rüklü, Cabir Albantürk, Kərim Dünyamalı, Füzuli Baratov, Qüdrət Minhacoğlu, Rizvan Qiblədağlı, Asvar Tufandağlı, Yusif Şabanov, Böyükağa Ağa çıxış edərək A.A.Bakıxanovun həyatı, bədii və elmi yaradıcılığının bəzi məziyyətlərindən söz açmış, A.A.Bakıxanova, "Gülüstan"a həsr etdikləri şeirlərini söyləmişlər.

Məclisdə həmçinin Xaçmaz rayonunun Bostançı kənd tam orta məktəbinin dil-ədəbiyyat müəllimi, fəal "gülüstan"çı Mehrəli Qulunun sayca 11-ci olan "Bir əskərin gündəliyindən..."kitabının təqdimat mərasimi keçirildi. Məclisin sədri Ş.Seyidməmmədov müəllifin Azərbaycan Xalq Cümhuriyyətinin eyni zamanda Milli Ordumuzun 100 illiyinə ithaf etdiyi kitabı haqqında məlumat verərək dedi :

- Hərbi qayda-qanunlara, nizam-intizama riayət, həqiqi hərbi xidmətin çətinlikləri, kriminal vəziyyət, gərgin psixoloji durumdan çıxış yolları və s. kitabın əsas məğzini təşkil edir. Müəllif əsərdə öz nümunəvi əskəri xidmərindən bəhs etməklə yanaşı, həmin müddər ərzində Sovetlər İttifaqının, o cümlədən Azərbaycanda baş vermiş mühüm tarixi hadisələri faktlar əsasında qələmə almışdır. Kitab nümunəvi hərbi xidmət, hərbi xidmətin qayda - qanunlarına, nizam intizama düzgün riayət, çətinliklərə sinə gərmək, əskər komandir münasibətləri baxımından müasir gənclərin də hərbi vətənpərvərlik tərbiyəsində mühüm rol oynaya bilər. Bütün bunları nəzərə alaraq, inanıram ki, müəllifin gərgin əməyinin bəhrəsi olan 260 səhifəlik "Bir əskərin gündəliyindən..." kitabı hər bir oxucu tərəfindən sevə-sevə oxunacaq və onların stolüstü kitabına çevriləcəkdir.

Məclis üzvlərindən Mövlud Ağamməd,Nəzər Mirzəyev, Seyfəddin Dalğın, Füzuli Baratov, Müşfiq Fərzəliyev və Sabir Kazımoğlu kitab haqqında fikirlərini söyləmiş və müəllifə daha böyük yaradıcılıq uğurları arzulamışlar.

Mehrəli Qulu məclis üzvlərinin suallarını cavablandırmış, əsərin yazılmasının məqsəd və məramı, yazılma şəraiti haqqında danışmış məclis üzvlərinə minnətdarlığını bildirmişdir. Sonra MKS-nə, qonaqlara və bütün məclis üzvlərinə "Bir əskərin gündəliyindən..." kitabını hədiyyə etmişdir.

Daha sonra Ş.Seyidməmmədov "Gülüstan" elmi-ədəbi məclisinin fəal üzvi, istedadlı şair, Azərbaycan Yazıçılar, Jurnalistlər və Aşıqlar birliklərin üzvi, "Şabran" ədəbi məclisinin sədri Qafar Süleymanın 68 yaşının tamam olmasını məclis üzvlərinin nəzərinə çatdıraraq demişdir :

- İnsan öz qismətinə düşən ömür payını yaşayır və bu, məlum həqiqətdir. Lakin, söhbət o payı, o qisməti necə yaşamaqdan gedir. "Necə yaşamaq" deyəndə isə, əlbəttə maddi təminat yox, sağlığında insanın özünün qazandığı hörməti, sonra mənəvi varlığa dönüb ürəklərdə, hafizələrdə əzizlənib yaşamasını nəzərdə tuturam. Bu isə hər kəsin hünəri deyil. Belə adamların ürəyini isidən məhr-ülfəti, insanlarla olan ünsiyyəti yaddan çıxmır. 70 yaşı olmasına cəmi ikicə il qalmış qələm dostumuz Q.Süleyman da bax belə insanlardandır. Onu bu gözəl gün münasibətilə təbrik edir, ona günəş kimi enerjili, dağlar qədər əzəmətli, həmişəcavan və gümrah olmağı arzulayıram. Məclis üzvlərindən Tahir Saleh,Böyükağa Ağa, Rirəli Rüklü və başqaları

# "Gülüstan" elmi-ədəbi məclisinin növbəti məşğələsində

da Q.Süleymanın mənalı həyat yolundan danışaraq ona cansağlığı və böyük yaradıcılıq uğurları arzuladılar. Axırda "Yurd sevgisi" qəzetinin baş redaktoru, qocaman jurnalist Nurəddin Faxralı yekdilliklə məclisin fəxri üzvi seçildi və məclis üzvləri Nizami parkındaı A.A.Bakıxanov adına Tarix Diyarşünaslıq muzeyinə ekskursiya etdilər, xatirə kitabına ürək sözlərini yazdılar.

Məclisdə bir daha nizam-intizam məsələləri müzakirə olunmuş, bəzi üzvlərə tövsiyə edilmişdir ki, məclisin ümumi işinə ləkə gətirən, qara yaxan dedi-qodulara son qoyulsun.

30 nəfərə yaxın məclis üzvünün iştirakı ilə üç saatdan çox davam edən son məşğələ də çox məzmunlu və yaddaqalan olmuşdur. Aşağıda məclis üzvlərinin A.A.Bakıxanova və onun yadigarı olan "Gülüstana" həsr etdikləri poeziya buketindən nümunələrlə tanış ola bilərsiniz :

**Şixəmməd Seyidməmmədov, məclisinin sədri**